**TƏHSİL SEKTORUNUN İNKİŞAFI ÜZRƏ İKİNCİ LAYİHƏ**

**KREDİT N_4394AZ**

**2010/2011-Cİ DƏRS İLİNDƏ 1-Cİ SİNİF ŞAGİRDLƏRİNƏ DƏRS DEYƏCƏK MÜƏLLİMLƏR ÜÇÜN İBTİDAİ TƏHSİL KURİKULUMU ÜZRƏ TƏLIMİN KEÇİRİLMƏSİNƏ DAİR**

**MARAĞIN İFADƏSİ ÜÇÜN DƏVƏT**

Azərbaycan Hökuməti Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti almışdır. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulmuşdur.

**Xidmətlərin məqsədi:** Yeni ibtidai təhsil kurikulumunun tətbiqinə dəstək olaraq ibtidai sinif müəllimləri üçün təlimin keçirilməsi.Təhsil Nazirliyi müvafiq təşkilatları qeyd olunan təlimin həyata keçirilməsi üçün maraqlarını bildirməyə dəvət edir.

**İcraçı təşkilat üçün ixtisas tələbləri:**

- Nizamnaməsinə uyğun olaraq, təşkilatın fəaliyyətinin əsas sahələri və istiqamətləri arasında təhsil və təlimlərin olması;
- Təlim kurslarını keçirmək üçün lazım olan ən zəruri işçi heyətinə və maddi imkanlara malik olması;
- Müəllimlər üçün təlim kurslarının və ya məktəblərlə birgə layihələrin həyata keçirilməsi sahəsində ən azı üç illik uğurlu iş təcrübəsi;
- Məktəb kurikulumlarının həyata keçirilməsi üzrə təlim kurslarında təcrübəsi olan təşkilatlar üstünlüyə malik olacaqdır .

**İcra müddəti:** iyun-avqust 2010-cu il

Xidmətlərə maraq göstərən təşkilatlar müvafiq ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2010-cu il, fevralın 18-nə qədər** aşağıdakı ünvana təqdim etməlidirlər:

- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

Təşkilat Dünya Bankının "Borcalanlar tərəfindən Məsləhətçilərin seçilməsi və İşə götürülməsi Qaydaları"na əsaslanan *Keyfiyyət və Dəyərə Əsaslanmış Seçim* metodu əsasında seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:


Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Təhsil Sektorunun İnkişafı Layihəsinin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net